# ŞAKİRİN GÜNÜ: GƏLİŞİ VƏ TƏRƏQQİSİ

*Əriyib torpaq olar neçə təkəbbür dağı,*
*Sayılmayan kimsələr ayaqlayar torpağı.*

**Müəllif.**

Şakir haqqında yazmaq üçün açar axtarırdım və ağlıma gələn açar elə bu təkbeyt oldu. Doğrudan da, özündən razılar, təkəbbürlülər, lovğalar özlərini dağa bənzər bilərlər. Unudarlar ki, bir gün əriyib torpaq olarlar. Və onların saymadığı kimsələr də o torpağı ayaqlayıb keçər.

Əvvəlcə Şakirin gəlişindən deyim, yəni bu dünyaya gəlişindən. 1969-cu ilin 25 aprelində Cəbrayılın Dağ Tumas kəndində dünyaya gəlib. Tumaslılar böyük elatdır. Cəbrayılın Dağ Tumasından başlamış, Qubadlının Çay Tumasınacan yayılmış elatdır. Bir az da dərinə getsək, tumaslılara sığınmış Əfəndilərin (ən görkəmli nümayəndəsi Bəhlul Behcət əfəndi) və Çələbilərin (Şeyx Alı Çələbi və digər Çələbilər nəsli) keçmiş sovet məkanının az qala bütün xəritəsini əhatə edir.

Tumaslılar azad fikirli, azad düşüncəli, öz qanunları ilə yaşayan insanlar kimi, tarixin müxtəlif zamanlarında öz səhifələrini yazıblar.

Şakir Əlifoğlu, Şakir Albalıyev və digər imzalarla yazan müəllif kimi "Pirəsədli", "Sofulu" imzalarından da istifadə edib. Bu da onun nəsil-kök baxımından böyük şəcərənin - nəsil ağacının bir budağını təmsil etdiyinə işarədir.

Bir də Şakirin həyatında mühüm bir an olub: 1993-cü ilin 29 avqust tarixində əsirlikdən qurtulub və sanki yenidən dünyaya gəlib. Cansız cəsədi ilə silahlı düşmənin cəngindən və əhatəsindən çıxa bilmək cəsarəti sübut edir ki, o, elə bu günün özündə də dəyirman daşının da altından salamat keçər.

Filologiya elmləri üzrə fəlsəfə doktorudur və doktorluq dissertasiyası üzərində işləyir. Çox fəal jurnalistlik fəaliyyəti göstərir. Bizim Xələfli Qədimalı müəllim deyir ki, əgər jurnalistlər yazdıqlarına görə pul ala bilsəydilər, Şakirdən varlısı olmazdı.

Şakir həyat hadisələrinə çox həssas yanaşır. Hər hansı bir məsələni əhəmiyyətsiz hesab etmir, sosial problemlərdən tutmuş, müharibə mövzusuna qədər, folklor dünyasından canlı elata qədər düşüncəsinin və gözünün önündən keçən nə varsa, ona münasibət bildirir. Əlbəttə, bu qədər axının əks-sədası onun yazılarında bəzən obyektiv qiymətini alır, bəzən də real qiymət yazı ilə müqayisədə sürüşür. Ancaq bunlar Şakiri ruhdan salmır. O, daim yazı içindədir, sözlə ünsiyyətdədir.

Şakir dünya qayğısı ilə yaşayan adamdır. Və bu qayğının içində özünə aid olanı çox vaxt unudur. Bəlkə də, özünü unutma fədakarlığının dəyərini cəmiyyətdən alğıdı üçün - əlbəttə, mənəvi dəyərini - bütün itirdiklərinə rəğmən özünü məmnun hesab edir.

Şakirin timsalında yaşamağın bircə anlamı var: Yazmaq, imzası ilə görünmək, onu görməzliyə vuranlara var olduğunu göstərmək!

Bu yerdə sevinməli tərəf də var: zaman göstərdi ki, tərəzi əlində olan kəslər Şakiri görməzliyə vurmurlar. Onun "Tərəqqi" medalı ilə təltif olunması və birinci növbədə elə rəğbətə təltif olunması insanların, onu tanıyanların şəxsən Şakirə münasibətinin təsdiqidir.

Bu dünyada ədalət deyilən bir şey də var!

***Əli Rza XƏLƏFLİ***
***05.08.2020***

Kredo 2020.- 6 avqust.- S.1.